

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 158 (23.320)

27 avqust 2019-cu il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Əhalinin səmərəli məşğulluğu təmin edilib

*Muxtar respublikada son dövrlər iqtisadi və sosial sahələrdə həyata keçirilən məqsədyönlü siyasət dinamik inkişafı təmin etməklə bərabər, əhalinin səmərəli məşğulluğuna da geniş imkanlar yaratmışdır.*

“Naxçıvan Muxtar Respublikasının 2005-2008-ci illər Regional İnkişaf Proqramı”, Naxçıvan Muxtar Respublikasının 2009-2013 və 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası görülən işlərin əhatəliliyini daha da artırmış, muxtar respublikada yeni istehsal və xidmət sahələri, təhsil, səhiyyə, mədəniyyət müəssisələri, müasir avtomobil yolları və digər infrastruktur obyektləri istifadəyə verilmişdir. Aparılmış uğurlu siyasət əhalinin səmərəli məşğulluğunu təmin etməklə bərabər, təhsil, səhiyyə və digər sosial təminatlarını da yaxşılaşdırmışdır.

Əldə olunmuş uğurların davamlılığının qorunub saxlanılması və artan əhali tələbatına uyğun olaraq iqtisadiyyatın çoxşaxəli inkişafının təmin edilməsi, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” təsdiq edilmişdir.



Muxtar respublikada 2007-2010-cu illərdə məşğulluq strategiyasının həyata keçirilməsi, 2014-2015 və 2016-2020-ci illərdə əhalinin məşğulluğunun artırılması üzrə dövlət proqramlarının uğurlu icrası da işaxtaran vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə, səmərəli məşğulluğun və özünüməşğulluğun təmin edilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə geniş imkanlar yaratmışdır. Belə ki, təkcə 2019-cu ilin birinci yarım ilində Naxçıvan Regional Peşə Tədris Mərkəzində qazanxana maşinisti, bərbər, aşpaz köməkçisi, dərzi, qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər, videoçəkiliş üzrə operator, cəzaçəkmə müəssisəsində isə daşduz üzərində oyma və xalçaçı peşələri üzrə kurslara, ümumilikdə, 178 nəfər cəlb olunmuşdur. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyindəki peşə-ixtisas təhsili müəssisələrində 1632 gənc müxtəlif peşələrə yiyələnmişdir.

Ötən dövrdə yeni iş yerlərinin yaradılması diqqətdə saxlanılmış, 2005-ci ildən 1 iyul 2019-cu il tarixədək muxtar respublikada 68 min 300 yeni iş yeri açılmışdır. Həmin iş yerlərinin 79,5 faizini daimi iş yerləri təşkil etmişdir. Bu iş yerlərinin 6166-sı yeni yaradılmış müəssisə və təşkilatlarda, 14639-u mövcud müəssisə və təşkilatlarda, 536-sı fəaliyyəti bərpa edilmiş müəssisə və təşkilatlarda, 32967-si isə fiziki şəxslərdə yaradılmışdır. Bu dövrdə ümumi açılmış iş yerlərinin 44,1 faizi Naxçıvan şəhərinin, 14,7 faizi Şərur, 12,5 faizi Babək, 7,1 faizi Ordubad, 8,6 faizi Culfa, 5,7 faizi Kəngərli, 4,8 faizi Şahbuz, 2,5 faizi Sədərək rayonlarının payına düşmüşdür.

Aparılmış məqsədyönlü tədbirlərin nəticəsi olaraq son dövrlər muxtar respublikada rəsmi işsiz statusu olan şəxs qeydə alınmamış, məşğul əhalinin sayı 2004-cü ilin sonu ilə müqayisədə 1,4 dəfə artaraq 1 iyul 2019-cu il tarixə 238,5 min nəfərə çatmışdır.

Sahibkarlığın inkişafı, yeni istehsal və xidmət sahələrinin yaradılması əmək bazarında əhəmiyyətli dərəcədə müsbət dəyişiklik yaratmışdır. Belə ki, 2004-cü ildə muxtar respublikada dövlət sektorunda çalışanların sayı iqtisadiyyatda çalışanların ümumi sayının 23,7 faizini təşkil etmişdirsə, 2019-cu ilin birinci yarısında bu göstərici 16,8 faiz olmuşdur.

Cari ilin ötən dövründə muxtar respublikada muzdla işləyənlərin sayı 96,2 min nəfər təşkil etmişdir ki, bunun da 40 mini dövlət, 56,2 mini isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir. Muzdla işləyənlərin 6,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 17,3 faizi sənaye, 12,1 faizi tikinti, 18 faizi topdan və pərakəndə ticarət, 5,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 2,9 faizi yaşayışın təşkili və ictimai iaşə, 1,1 faizi informasiya və rabitə, 0,4 faizi maliyyə və sığorta fəaliyyəti, 0,7 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar, 1,2 faizi peşə, elmi və texniki fəaliyyət, 1,3 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 5,6 faizi dövlət idarəetməsi və icbari sosial təminat, 15,3 faizi təhsil, 6 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 3,8 faizi istirahət, əyləncə və incəsənət, 2 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.



Yüksək əməktutumlu iş yerlərinin yaradılması əhali rifahının davamlı yüksəlişinə əsaslı zəmin yaratmış, 2019-cu ilin yanvar-iyun aylarında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 449 manatı ötmüşdür. 2004-cü ildə bu göstərici 68 manat səviyyəsində olmuşdur. Hazırda bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği dövlət sektorunda 387,9, qeyri-dövlət sektorunda isə 493,1 manat təşkil edir. Bir işçiyə hesablanmış ən yüksək orta aylıq əməkhaqqı göstəricisi maliyyə və sığorta fəaliyyəti, dövlət idarəetməsi və icbari sosial təminat, topdan və pərakəndə ticarət sahələrində çalışan işçilərdə qeydə alınmışdır.

Muxtar respublikada davamlı iqtisadi tərəqqinin təmin edilməsi məqsədilə həyata keçirilən siyasət, insan kapitalının inkişafı, rəqabətədavamlı və ixracyönümlü yeni məhsullar istehsal edən müəssisələrin yaradılması əmək ehtiyatlarından səmərəli istifadəni, əhalinin məşğulluq və sahibkarlıq imkanlarını daha da artırmaqdadır.

**Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti**

## Sənaye məhsullarının istehsal həcmi artır



***Ölkəmizdə həyata keçirilən çoxşaxəli iqtisadi inkişaf strategiyasının əsas məqsədlərindən biri də sənaye məhsulları istehsalı ilə tarazlı inkişafa, o cümlədən yerli istehsal və əmək potensialından səmərəli istifadə etməklə ixracyönümlü məhsul istehsalına nail olmaqdan ibarətdir. Buna görə də milli iqtisadiyyatımızın hazırkı dövründə mövcud sənaye imkanlarından maksimum yararlanmaq, məhsul istehsalında dayanıqlılığı təmin etmək məqsədilə yeni istehsal müəssisələrinin yaradılması qarşıda duran əsas vəzifələrdəndir.***

Məqsədyönlü dövlət siyasəti ölkəmizin bütün bölgələrində, o cümlədən Naxçıvan Muxtar Respublikasında da sənayenin inkişafına şərait yaradıb. Təsadüfi deyil ki, təxminən, son 20 il ərzində muxtar respublikada çoxsaylı yeni müəssisələr istifadəyə verilib, mövcud müəssisələrin fəaliyyətlərinin bərpası və yenidən qurulması təmin olunub. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün muxtar respublikada çörəkbişirmə, qənnadı, mineral su, spirtli içkilər, siqaret, pivə, plastik qapı və pəncərə, plastik su boruları, hörgü və döşəmə üçün kərpic, üzlük daş, gips, gips lövhələr, əhəng, məsaməli beton, karbon qazı, metaləritmə və onlarla digər istehsal sahələri yaradılıb. Sənaye sahələrinə böyük investisiyaların qoyulduğu Naxçıvan Sement Zavodu, minik avtomobillərinin istehsalını həyata keçirən Naxçıvan Avtomobil Zavodu və digər müəssisələr bu sahədə məhsul istehsalının həcminin artımına müsbət təsir göstərib. Nəticədə, ümumi daxili məhsul istehsalında sənaye məhsullarının həcmi durmadan artmaqdadır.

Muxtar respublikada müasir sənaye müəssisələrinin yaradılması, yeni məhsulların istehsalı bu sahədə dinamik inkişafı təmin edib. 2019-cu ilin yanvar-iyun aylarında muxtar respublikada 550 milyon 110 min 700 manat dəyərində sənaye məhsulu istehsal olunub. Bu da bir il öncəki göstəricini 1,4 faiz üstələyib. Sənaye məhsulu istehsalının 96,1 faizi malların, 3,9 faizi isə xidmətlərin payına düşüb. İstehsal olunan sənaye məhsulunda özəl bölmənin payı 94,3 faiz təşkil edib ki, bu da ölkənin digər iqtisadi rayonları ilə müqayisədə ən yüksək göstəricidir.

Sənayenin inkişafı məqsədilə bank və kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə 2019-cu ilin yanvar-iyun aylarında 4 milyon 312 min manat kredit verilib. Sənayedə istehsalın həcminin artması nəticəsində 2019-cu ilin ilk yarım ilində 151 milyon 253 min 500 ABŞ dolları dəyərində sənaye məhsulları ixrac olunub.

Məlumat üçün bildirək ki, muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 636 milyon 155 min 100 manat dəyərində məhsul istehsal edilib ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çoxdur.

Onu da qeyd edək ki, bu gün muxtar respublika iqtisadiyyatının şaxələndirilməsində sənaye sektoru əhəmiyyətli rol oynayır və müasir sənaye müəssisələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması bu sahənin sürətli inkişafına təkan verib.

**✍ Pərviz HACILI**

## Darıdağ arsenli su müalicə və istirahət kompleksi tikilir



*Muxtar respublikamızın zəngin təbii sərvətləri burada müalicə turizminin inkişafı üçün geniş imkanlar açır. Bu imkanlardan səmərəli istifadənin nəticəsidir ki, hazırda Culfa rayonunda Darıdağ arsenli su müalicə və istirahət kompleksi tikilir.*

Kompleksin tikintisinə 2019-cu ilin mart ayından başlanılıb. Zirzəmi ilə birlikdə beş mərtəbədən ibarət olacaq binanın zirzəmi hissəsində qazanxana, elektrik otağı, köməkçi iş otaqları, çarhovuzlar, mətbəx, kişi müalicəxana bölümündə bərbər, masaj və VİP masaj otaqları, qadınlar üçün nəzərdə tutulmuş müalicəxana hissəsində gözəllik salonu, mətbəx, masaj və qeydiyyat otaqları yerləşəcək.

Yeni səhiyyə ocağının birinci mərtəbəsində restoran, mağaza, gözləmə zalı, bufet, mətbəx, otel işçiləri üçün istirahət, həkim və müdir otaqları yerləşəcək. İkinci, üçüncü və dördüncü mərtəbələr isə istirahət otaqları üçün nəzərdə tutulub.

Aldığımız məlumata görə, hazırda kompleksin birinci və ikinci mərtəbələrində hörgü və suvaq işləri yekunlaşdırılıb, üçüncü mərtəbədə hörgü, dördüncü mərtəbədə isə beton-qəlib işləri aparılır. Həmçinin kommunikasiya xətlərinin çəkilməsinə başlanılıb. İnşaatçılar lazımi tikinti materialları, avadanlıq və texnika ilə təmin olunublar. Obyektdə, əsasən, yerli tikinti materiallarından istifadə edilir. İnşaatçılar işlərin yaxşı və keyfiyyətli yerinə yetirilməsi üçün səylə çalışırlar.

Qeyd edək ki, Darıdağ arsenli suyu dünyada ən zəngin və güclü mineral tərkibi olan müalicəvi sudur. Bu suyun bir çox xəstəliklərin müalicəsində faydalı olması kliniki təcrübələrdə sübut olunub. Ona görə də Darıdağ arsenli suyundan müalicə məqsədilə geniş istifadə olunması muxtar respublikamızda müalicə turizminin inkişafına da öz töhfəsini verəcək.

**Xəbərlər şöbəsi**

***Maraq və həyəcanla çıxdığımız yolun uzaq olmasına baxmayaraq, heç də yorğun deyilik. Əksinə, seyrinə daldığımız mənzərələr – xəfif əsən küləyin mehindən dəniztək dalğalanan, yamyaşıl çəmənliklərə naxış salan rəngarəng çiçəklər, zümrüd rəngli, gözyaşıtək saf bulaqlar insanın ruhuna rahatlıq bəxş edir. Gedəcəyimiz ünvana yaxınlaşdığımızı yol qət etdikcə sərinləyən havadan da bilirik. Çünki bu yerlər yayın ən qızmar çağında belə, uca zirvəsindən qarı əskik olmayan Gəmiqayanın qoynuna sığınan yurd yeridir. Bəli, bura Ordubad rayonunun Ələhi kəndidir. İlin bu vədəsində yaşıllıq və onun üzərinə əlvan xalı kimi sərilən çiçəklərdən də əbəs yerə bəhs etmədim. Çünki bu səfalı məkanda arandan fərqli olaraq hələ də yazın ətri duyulmaqdadır.***



*Müasirləşən kəndlərimiz*

# Görünən kəndə nə bələdçi?

Əyriçayın sol sahili, Qapıcıq dağının ətəyində yerləşən bu kəndin adı "çökəklik" mənasına uyğun gəlsə də, yaşayış məntəqəsi indi öz inkişafının zirvəsindədir. Dağların əhatəsində yerləşən kəndə daxil olarkən gördüyümüz mənzərə – bir tərəfi qədim tarixə malik əfsanəvi yurd yeri Gəmiqaya, bir tərəfi yay fəslinin qızmar çağında könüloxşayan başıqarlı dağlar, min bir dərdin dərmanı yeraltı mineral bulaqlar, yolboyu kəndə gələnləri salamlayan meyvə ağacları, nadir ağaclar diyarı olan Tillək meşəsinin füsunkarlığı, insanın ruhunu dinləndirən Əyriçayın şırıltısı...



Tanrının xüsusi zövqlə, incəliklə yaratdığı bu füsunkar yurd yerini seyr etdikcə görülən işlərdən, dövlət qayğısı sayəsində əldə olunan yüksək inkişafdan söz açmamaq qeyri-mümkündür. Bir neçə il bundan əvvəl dövlətimizin qayğısı sayəsində strateji əhəmiyyətə malik olan Biləv-Göygöl avtomobil yolunun istifadəyə verilməsi kənd sakinlərinin əsas problemini aradan qaldırıb. Bir zamanlar kənd camaatının rayon mərkəzi Ordubad şəhərinə, digər yerlərə gediş-gəlişi ilə bağlı mövcud olan çətinliyin aradan qaldırılması indi bu yurd yerinə turist axını ilə nəticələnib. Bu yolları gedərkən uca dağları yararaq geniş yollar çəkən insan əlinin qüdrətinə, düşüncəsinə heyran qalmamaq mümkün deyil.

Kəndə yaxınlaşdıqca gül-çiçəyin təravətli ətri, quşların cəh-cəhi insanı bihuş edir. Elə kəndin girəcəyindəcə çağlayan, bu yerlərin qazlı suyu, buz kimi Narzan yoldan ötənləri qonaqlayır. Bir tərəfdə gözümüzü çəkə bilmədiyimiz təbiətin gözəlliyi, bir tərəfdə isə gözoxşayan şəhər mənzərəsi – yeni məktəb binası, səhiyyə ocağı, kənd və xidmət mərkəzləri, məscid, sanki indicə çəkilmiş yolların üzərindən bir-birini ötüb keçən maşınlar... Burada təbiətin ecazkar gözəllikləri ilə müasir infrastrukturun səbəb olduğu qeyri-adi bir mənzərə vəhdət təşkil edir. Bu mənzərə insanı "könüloxşayan bu gözəllik kəndə, yoxsa şəhərə məxsus bir gözəllikdir?" düşüncəsinə qərq edir.

Kəndin gözəlliklərinin sorağına hər il onlarla turist gəlir. Ələhinin heyranedici mənzərəsi və təmiz havasına məftun olanlar bu yerləri bir də yad etməyə can atır. Elə bizim gəlişimiz də kəndin qonaqqaralı vaxtına təsadüf edib. Aşıq Ələsgər demişkən, qüdrətdən səngərli, qalalı olan dağların əhatəsində yerləşən kəndin yay aylarında cəlalı bir başqa olur. Hər tərəfdən gülüş sədası, uşaq səsi eşidilir.

Biranlıq xəyalən illər öncəyə nəzər salıram. Bir zamanlar çətinlik içində yaşayan kənd sakinləri indi özlərini xoşbəxt hiss edirlər. Gözlərim önündə köhnə, dörddivar arasında yerləşən kənd məktəbi canlanır. Soyuq və səliqəsiz sinif otaqları sınıq-salxaq partaların arxasında oturan şagirdlərin oxumaq, müəllimlərin işləmək həvəsini də soyudurdu. İndi isə mənzərə tamam başqadır. Uca dağların zirvəsində Günəşin parlaq şüaları altında bərq vuran yaraşıqlı bina tədris üçün lazım olan nə varsa, hər biri ilə təchiz edilib. Yeni məktəb binasında çalışan hər bir müəllim dərk edir ki, belə müasir şəraitlə insanları təmin edən dövlətin ondan yalnız bir tələbi var: öhdəsinə düşən vəzifəni layiqincə yerinə yetirmək və ölkəmizin gələcəyi üçün vətənpərvər, savadlı gənclər yetişdirmək.

Təhsil ocağına daxil olarkən özümü şəhərin tam mərkəzində fəaliyyət göstərən məktəb binalarının birində hiss etdim. Mərmər döşəmə, gözəl sinif otaqları, səliqə-sahmanla düzülmüş partalar, başlanmaqda olan yeni tədris ilinə ciddi hazırlıq işləri. Məktəb tədris prosesinə uyğun bütün əyani vəsaitlər, informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunub.

Bizi qarşılayan Ələhi kənd tam orta məktəbinin direktoru Elnur Həbibov deyir ki, 2013-cü il noyabr ayının 12-də ümumi orta məktəbin yeni binası Ali Məclisin Sədri cənab Vasif Talıbovun iştirakı ilə istifadəyə verilib. Bu, kəndin tarixində mühüm hadisədir. Məktəbdə müasir informasiya-kommunikasiya texnologiyalarının və yeni tədris avadanlıqlarının quraşdırılması təhsilin inkişafına göstərilən yüksək diqqət və qayğının daha bir nümunəsidir. Yaradılan şəraitin müqabilində məktəbin pedaqoji kollektivi vətənpərvər və savadlı gənclər yetişdirmək yolunda öz səy və bacarığını əsirgəmir. Biz müəllimlər çalışırıq ki, bu etimadı doğruldaq, dərs dediyimiz hər bir övladımızı gələcəyimiz üçün sağlam ruhda böyüdək.

Məktəbin dünəni və bu günü ilə bağlı fikirlərini bizimlə bölüşən digər müəllim isə Mənsur Tahirov oldu. Onun dediklərindən: "Uzun illərdir ki, bu məktəbdə rus dili fənnini tədris edirəm. Əmək fəaliyyətinə başladığım ilk vaxtlarda məktəbin vəziyyəti, sözün düzünü desək, heç də ürəkaçan deyildi. Əvvəllər sinif otaqlarını isitmək üçün odun sobaları yandırmalı olurduq. Odunu isə bəzən tapar, bəzən tapmazdıq. Qışda sinifdə soyuqdan əlləri təbaşir tutmayan şagirdlər xəstələnər, ilin çox vaxtı dərsdən geri qalardılar. Bu isə məktəbdə nizam-intizamın pozulmasına və şagirdlərin yetərli təhsil almamasına gətirib çıxarırdı. Amma bu gün məktəbimizin binası yenidən qurulub, hər cür şəraitlə təmin olunaraq şagird və müəllimlərin istifadəsinə verilib. Bu isə həm müəllimlərdə, həm də şagirdlərdə ruh yüksəkliyi yaradıb. Fənləri həvəslə tədris edən müəllimlər, nəticədə, şagirdlərin onların bu zəhmətini yerdə qoymadıqlarını görürlər".

Həmsöhbət olduğumuz digər müəllim isə Zərövşən Həbibova artıq 30 ildən çoxdur ki, bu məktəbdə çalışır. O xatırladır ki, "bir ölkənin gələcəyini bilmək üçün onun gəncliyinə nəzər salmaq lazımdır" – deyib müdriklər. Bunun üçün, ilk növbədə, gənclər təhsilli və vətənpərvər yetişdirilməlidir. Bu gün muxtar respublikamızda təhsilə qayğı ən yüksək səviyyədədir. Bu sahədə həyata keçirilən tədbirlər, ilk növbədə, xoşbəxt gələcəyimizə hesablanıb. Təhsilli və vətənpərvər gənc isə gələcəkdə həm ölkəsi, həm də cəmiyyət və ailəsi üçün yararlı olacaqdır. Bu gün müasir tədrisin tələbləri səviyyəsində qurulan məktəbimizdə hər cür şərait var. Biz müəllimlər yaradılan bu şəraitin müqabilində gənclərin hərtərəfli təhsil alması və əsl vətəndaş kimi yetişdirilməsi üçün əlimizdən gələni əsirgəmirik.

İllər öncə bu kənddə səhiyyə ocağının yararsız vəziyyətdə olması heç də insanların sağlamlığına təsirsiz ötüşməyib. Lakin bu gün müasir standartlara cavab verən, yeni avadanlıqlarla təchiz olunan tibb müəssisəsi tərəfindən kənd sakinlərinin müayinə və müalicələri başqa ünvanlara getmədən həll edilir. Ələhinin yeni quruculuq ünvanları sırasında yer alan kənd və xidmət mərkəzləri də diyarımızda insan amilinə verilən dəyərin təzahürüdür. Kənd mərkəzində bütün dövlət qurumlarının fəaliyyəti təmin edilib. Fikrimcə, Naxçıvanın nümunəvi kənd modelinin əsasında elə məhz kənd mərkəzləri dayanır. Əvvəllər hansısa sənədləşmə və ya başqa bir iş üçün rayon mərkəzinə üz tutan sakinlər bu gün bütün işlərini, necə deyərlər, öz qapılarının ağzındaca həll edirlər. Kənd mərkəzində rabitə evindən tutmuş mədəniyyət evinə qədər bütün qurumlar fəaliyyət göstərir. Yüzlərlə kitab fondu olan kitabxana da mərkəzdə mütaliəsevər kənd camaatının üzünə açıqdır.

Xidmət mərkəzi isə kəndlilərin zəruri ehtiyaclarının ödənilməsində mühüm rol oynayır. Ərzaq məhsullarından tutmuş ən zəruri məişət avadanlıqlarına qədər hər şeyi bu ünvandan əldə etmək olar. Kəndliyə də elə bu lazım deyilmi? Ələhidə yaradılanlar kənd sakinlərinin torpağa münasibətini kökündən dəyişib. Təsərrüfatın dağlıq zonaları üçün xarakterik sayılan arıçılıq, maldarlıq, qismən əkinçilik, meyvəçilik və digər sahələrlə məşğul olan ələhililər bu kənddə yaşadıqları üçün özlərini xoşbəxt hesab edirlər. Bütün zəruri ehtiyaclarını ödəyən sakinlər rahat və arxayın şəkildə öz təsərrüfatları ilə məşğul olur, övladları isə ən müasir tələblərə cavab verən məktəb binasında təhsil alırlar.

Bir sözlə, kənddə aparılmış yenidənqurma işləri insanların doğma yurda baxışını dəyişib, göstərilən qayğı, diqqət bu torpağı, bu yurdu insanlara daha çox doğmalaşdırıb. Kənd məktəbinə öz istəkləri ilə təyin olunan Azərbaycanın digər şəhər və rayonlarından gələn ixtisaslı müəllimlər, səhiyyə məntəqəsində çalışan tibb işçiləri bu gözəlliklər qarşısında heyran qalıb, hətta bir çoxları bu kənddə daimi yaşamaq üçün özlərinə yaşayış mənzilləri tikiblər. Kənddə bolluq-bərəkət, fasiləsiz yanan işıq, təbii qaz əvvəlki illərin bütün yorğunluğunu, əzab-əziyyətini kənd camaatına artıq çoxdan unutdurub.

Hazırda muxtar respublikamızın kəndlərində daxili bazarı keyfiyyətli məhsullarla təmin edən 800-dən artıq ailə təsərrüfatı var. Elə Ələhi kəndində də belə təsərrüfatlar az deyil. Burada da sakinlər iri ailə təsərrüfatlarının yaradılmasına maraq göstərirlər. Kənd sakini Yaşar Həbibov deyir ki, təsərrüfata hər zaman maraq göstərib. Getdikcə bu sahədən yaxşı gəlir əldə etdiyindən daha da ruhlanıb. 4 hektar həyətyanı və pay torpaq sahəsi olan təsərrüfat başçısı deyir ki, bağımızda müxtəlif meyvə ağacları var. Şükür, bu il məhsuldarlıq yüksək olub. Hazırda bu mövsümdə yetişən meyvələri tədarük edirik. Ailə üzvlərimizin köməyi ilə alma, armud, heyva, üzüm, şaftalı və digər meyvələrdən kompot və mürəbbələr hazırlamışıq. Satış üçün onları müxtəlif şüşə qablarda gigiyenik qaydalara uyğun olaraq qablaşdırmışıq. Yerli və keyfiyyətli məhsullar təqdim etdiyimizdən alıcımız da hər zaman başımızın üzərindədir. Ailə üzvləri tərəfindən qablaşdırılan müxtəlif çeşiddə məhsullar rayon ərazisində, eləcə də Naxçıvan şəhərində fəaliyyət göstərən satış obyektlərində alıcılara təqdim olunur. Müsahibimiz onu da vurğuladı ki, ötən il Naxçıvan şəhərində keçirilən "Ailə təsərrüfatı məhsulları" festivalında da iştirak edib. Festivala müxtəlif növdə kompotlar, turşular çıxarıb, alıcı tələbat və marağı ilə qarşılaşıb.

Bir sözlə, digər kəndlərimiz kimi, Ələhidə də sakinlər müasir imkanlardan yararlanaraq firavan yaşayırlar. Abad yolları, müasir sosial obyektləri ilə sakinlərə rahat həyat bəxş edən Ələhidə təsərrüfatlar hər il daha da genişlənir, insanların xoş güzəranı təmin edilir. Bu yaşayış məntəqəsi öz müasir həyatı ilə yanaşı, xalqımıza məxsus adət-ənənələri də böyük ehtiramla qoruyub saxlayan kəndlərimizdən biridir. Ən əsası isə bu torpaqda yaşayanlar öz yurd yerlərinə möhkəm tellərlə bağlıdırlar. Bu tellər yurdun hər daşını, qayasını göz bəbəyi kimi qoruyacaq qədər qırılmaz və möhkəmdir.

Hər gördüyümüz mənzərəni heyrətlə qarşılayıb, telefonumuzun kamerası vasitəsilə yaddaşına köçürdük. Kənddə mövcud olan yüksəksürətli internetdən istifadə edərək çəkdiyimiz hər bir fotonu anında sosial şəbəkələrdə dostlarımızla paylaşdıq. Görünən kəndə nə bələdçi?! Elə yeni informasiya texnologiyalarının mövcudluğu buradakı müasir həyat tərzindən danışmaq üçün başqa sözə ehtiyac yaratmır.

*Kənddən xoş təəssüratlarla qayıtdıq. Qürur duyuruq ki, bu gün şəhər və rayon mərkəzlərində olduğu kimi, ən ucqar kəndlərimizdə belə, müasir həyat tərzi hökm sürür. İnsanlar rahat və firavan yaşayırlar.*

✍ **Gülcamal TAHİROVA**

*İstehsal müəssisələri*

# Daxili bazar təmizlik vasitələri ilə də təmin edilir

Naxçıvan Muxtar Respublikasında son illər sahibkarlığın inkişafı sahəsində ardıcıl tədbirlər görülür, sahibkarların normal fəaliyyətinə hərtərəfli şərait yaradılır. Bunun nəticəsidir ki, artıq diyarımızda güclü sahibkarlar dəstəsi formalaşıb. Əlverişli sahibkarlıq və biznes mühitinin formalaşması xarici iş adamlarının da bölgəmizə investisiya yatırmaqla yeni istehsal sahələri yaratmasına səbəb olub. Hazırda muxtar respublikamızda müxtəlif profilli istehsal müəssisələri fəaliyyət göstərir ki, onlardan biri də "Nuhçıxan" Məhdud Məsuliyyətli Cəmiyyətidir.



Yaxın günlərdə adıçəkilən ünvana üz tutub müəssisənin direktoru Onur Qaraxanla həmsöhbət olduq. O bildirdi ki, Naxçıvan Muxtar Respublikasında sahibkarlıq fəaliyyəti üçün əlverişli şəraiti görüb biz də burada bir istehsal sahəsi yaratmaq qərarına gəldik. 2012-ci ilin may ayında müəssisə üçün ayrılan binada əsaslı təmir və yenidənqurma işlərinə başlanıldı. Üçmərtəbəli binada istehsal sexləri, xammal və hazır məhsulların saxlanılması üçün anbar, laboratoriya, yeməkxana, inzibati və digər yardımçı otaqlar istifadəyə verilib.

Onur Qaraxan bildirir ki, müəssisədə tibb vasitələrinin, eləcə də yuyucu, təmizləyici maddələr və plastmas taraların istehsalı sahəsi fəaliyyət göstərir. Burada Türkiyədən alınmış müasir texnoloji avadanlıqlar quraşdırılıb, müəssisədə istehsal prosesi avtomatlaşdırılıb. Türkiyə, Fransa, Almaniya, İsveçrə və Rusiya Federasiyasından idxal olunan xammal reseptə uyğun olaraq ayrı-ayrı çənlərdə qarışdırılıb hazırlanır və istehsal xəttinə buraxılır. Bu proses kompüterlə idarəetmə mərkəzi vasitəsilə həyata keçirilir. Müəssisə rəhbərinin sözlərinə görə, burada tibb sahəsi üçün aldehidli alətdezinfeksiyaedici, etil spirti, ultrasəs müayinə üçün jele, təmizləyici və alətdezinfeksiyaedici məhlul və digər tibbi vasitələr istehsal olunur. Yuyucu və təmizləyici maddələr istehsalı sahəsində isə "İnci" saç şampunları və kremi, "Cəvahir" qab şampunları, kafel, metlax və taxta döşəmələr üçün səth təmizləyiciləri, "Ulduz" şüşətəmizləyicisi, "Təravət" havatəravətləndiricisi, "Sədəf" maye sabunu və sair, ümumilikdə, 3 növdə 25 çeşiddə məhsul istehsal edilir. İstehsal gücü saatda 1600 ədəd 500, 750 qramlıq və 1 litrlik, 400 ədəd 5 litrlik taralar olan yuyucu və təmizləyici maddələr istehsalı sahəsində və saatda 250 ədəd plastmas taralar istehsalı sahəsində tələbata uyğun olaraq məhsul hazırlanır.

Müəssisə ilə tanışlıq zamanı öyrənirik ki, burada müasir avadanlıqlarla təchiz olunan laboratoriya fəaliyyət göstərir ki, bu da istehsal olunan məhsulun keyfiyyətlə hazırlanmasında mühüm şərtdir. Daxil olan xammal və hazır məhsul həmin laboratoriyada analizdən keçirildikdən sonra satışa çıxarılır. İstehsal olunan məhsulun vaxtında və keyfiyyətlə ticarət obyektlərinə çatdırılması üçün müəssisə 2 avtomaşınla təmin olunub.

Muxtar respublikamızda həyata keçirilən iqtisadi siyasətin əsas məqsədlərindən biri də daxili bazarın tələbatına uyğun müəssisələrin yaradılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirməkdir. Məhz həmin tədbirlərin nəticəsidir ki, muxtar respublikada bazar iqtisadiyyatının tələblərinə uyğun rəqabətqabiliyyətli müəssisələrin sayı artır. Yaradılan müəssisələr bir tərəfdən qeyri-ərzaq məhsullarının bolluğuna, digər tərəfdən də əhalinin məşğulluğunun təmin olunmasına xidmət edir.

✍ **Ramiyyə ƏKBƏROVA**



*Təhsil millətin gələcəyidir*

# Yaradılan şərait gələcəyimiz olan savadlı, mükəmməl biliyə malik gənclərin yetişdirilməsinə xidmət edir

***Müasir qloballaşma əsrində Azərbaycanda milli tərəqqinin yeganə yolu elm və təhsilin, yeni biliklərin, intellektual əməyin inkişafından, habelə kompüter və informasiya texnologiyalarının geniş tətbiqindən keçir. Bu gün Azərbaycanda təhsilə qayğı ən yüksək səviyyədədir. Bu sahədə həyata keçirilən islahatlar, ilk növbədə, Azərbaycanın xoşbəxt gələcəyinə hesablanıb.***

Ölkəmizdə təhsilə diqqət və qayğı hələ ötən əsrin 60-cı illərindən başlayıb. Ulu öndər Heydər Əliyev 1969-cu ildən etibarən Azərbaycanda təhsil müəssisələrinin yeniləşdirilməsinə, onların maddi-texniki bazasının möhkəmləndirilməsinə, təhsilin keyfiyyətinin yüksəldilməsinə birbaşa rəhbərlik edib. İstedadlı və xüsusi qabiliyyətli gənclərin üzə çıxarılması, yeni texnologiyaların tətbiqi görkəmli dövlət xadiminin daim diqqət mərkəzində olub. Xalqımızın ümummilli lideri Heydər Əliyev deyirdi: ***"Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır".***

Müstəqillik illərində də Azərbaycanda təhsilin inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Görkəmli dövlət xadimi 1993-cü ildən başlayaraq təhsil sahəsində uğurlu islahatlar aparıb, ali təhsil müəssisələrinin şəbəkəsi genişləndirilib. Bu gün təhsil siyasəti dahi rəhbərin təməlini qoyduğu etibarlı zəmin üzərində davam və inkişaf etdirilir. Ümummilli liderimizin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin böyük səyləri sayəsində təhsil siyasəti Azərbaycanın davamlı inkişaf strategiyasının mühüm istiqamətlərindən birinə çevrilib. Ölkə başçısının rəhbərliyi ilə həyata keçirilən milli təhsil islahatlarının bir hissəsini də ixtisaslı müəllim kadrlarının hazırlanması, müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılması təşkil edir.

Qürur hissi ilə deyə bilərik ki, bu gün muxtar respublikamızda bütün sahələrdə olduğu kimi, təhsildə də xüsusi diqqət və qayğı ilə yanaşılır. Təkcə bir faktı qeyd edək ki, son 23 ildə muxtar respublikada 200-dən çox təhsil müəssisəsi öz fəaliyyətini müasir tədris şəraiti yaradılmış binalarda davam etdirir. Təbii ki, bu şərait gələcəyimiz olan savadlı, mükəmməl biliyə malik gənclərin yetişdirilməsindən xəbər verir. Bir təhsil işçisi olaraq deyə bilərəm ki, gənclərin informasiya cəmiyyətinə hazırlanmasını təmin etmək üçün bu gün təhsil müəssisələrində informasiya və kommunikasiya texnologiyalarının ən son nailiyyətləri tətbiq edilir. Bəli, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamının icrası bütün təhsil müəssisələrində təhsilin keyfiyyətinin yaxşılaşdırılmasına əhəmiyyətli dərəcədə təsir göstərib, yeni təlim üsullarının tətbiqinə əlverişli imkan yaradıb. Bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsində Azərbaycanın tarixi, mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələr təşkil edilir, gənclər elmi biliklərlə yanaşı, milli-mənəvi dəyərlərimizi, tariximizi, mədəniyyətimizi ən mütərəqqi üsullarla mənimsəyirlər. Muxtar respublikamızın ümumtəhsil məktəblərinin kitabxana şəbəkələrinin genişləndirilməsi, onların maddi-texniki bazalarının gücləndirilməsi və şagirdlərin dərsliklərlə təminatı da diqqət mərkəzində saxlanılır. Bu gün təhsil müəssisələrində oxunması zəruri olan kitablardan ibarət guşələrin yaradılması, bu kitabların mütaliə və müzakirələrinin keçirilməsi mühüm əhəmiyyət daşıyır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə bilik və bacarıqları qiymətləndirilmiş müəllimlərin əməkhaqlarının artırılması təhsilə, təhsil işçilərinə göstərilən qayğının bariz nümunəsidir. Bu sərəncam müəllimlərin işə məsuliyyətlərini birə-beş artırıb. Məlum olduğu kimi, ötən ildən etibarən pedaqoji kadrların işə qəbulu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən həyata keçirilir. Bu, ümumtəhsil məktəblərinin pedaqoji kadrlarla təminatında əvvəlki illərdə yol verilmiş nöqsanların aradan qaldırılması və bu prosesin şəffaf həyata keçirilməsində mühüm rol oynamaqdadır. Göstərilən dövlət qayğısı və yaradılmış şərait nəticəsində şagirdlərin təhsilə marağı artır, ali və orta ixtisas məktəblərinə həm sənədvermə, həm də qəbulun nəticələri ilbəil yaxşılaşır.

Təhsil sahəsində uğurlarımızdan biri də abituriyentlərin ixtisas seçimi zamanı muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrinə daha çox üstünlük vermələridir. Təhsilimizin himayədarı olan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin hər il yüksək bal toplayan tələbələrlə görüşü bir ənənə şəklini alıb. Bu yaxınlarda keçirilən tələbələrlə görüşdə Ali Məclisin Sədri demişdir: ***"Təhsil hər bir vətəndaşın həyatını düzgün qurmasında, fəal vətəndaş mövqeyini formalaşdırmasında, cəmiyyətin inkişafı və dövlət quruculuğunda yaxından iştirakında mühüm rol oynayan prosesdir. Bu prosesin fəal üzvü olmaq və uğurlu nəticə əldə etmək üçün hər bir gənc geniş dünyagörüşünə və müasir tələblərə uyğun təhsilə malik olmalıdır".***



Muxtar diyarımızda təhsil quruculuğu, təhsil siyasəti, gələcəyimiz olan gənclərin savadlı kadr kimi yetişməsi əsas vəzifələr sırasındadır. Ümumtəhsil məktəblərində yaradılan şərait hərtərəfli inkişaf edən formalaşmış gəncliyin yetişməsinə hesablanıb. Yeni texnologiyaların və distant təhsilin tətbiqi, müasir tədris metodlarından istifadə dünya təhsil sisteminə inteqrasiyası sürətləndirib. Ümumtəhsil məktəblərində sürətli internetə çıxışı olan kompüterlər və elektron lövhələr quraşdırılıb, şagirdlərin istifadəsinə zəngin fonda malik kitabxanalar, laboratoriyalar və fənn kabinələri verilib. Həyata keçirilən təhsil islahatı və tətbiq olunan müasir tədris metodları nəticəsində təhsilin keyfiyyət əmsalı yüksəlib. Çalışdığım təhsil ocağı – Naxçıvan Qızlar Liseyi də təhsilə göstərilən qayğıdan öz bəhrəsini alıb. Geridə qoyduğumuz tədris ilində liseyi bitirən 48 məzundan 45-i ali, 3-ü isə orta ixtisas məktəblərinə qəbul olub. Məzunlardan 13-ü qəbul imtahanlarında 500-700 intervalında bal toplayıb. Onlardan 4-ü fərqlənmə attestatına, 1-i "Qızıl", 1-i isə "Gümüş" medala layiq görülüb.

Bu gün müəllim əməyi də dövlətimiz tərəfindən layiqincə qiymətləndirilir. Hər il müəllimlərə fəxri adların verilməsi dediklərimizi bir daha təsdiq edir.

Bir sözlə, bu gün muxtar respublikamızda təhsilin müasir tələblər səviyyəsində qurulması, gənclərimizin yaxşı təhsil almaları, gələcəyimizin layiqli vətəndaşları kimi yetişmələri, eləcə də müəllim əməyinin qiymətləndirilməsi yüksək səviyyədədir. Biz təhsil işçiləri yaradılan şəraitə və göstərilən qayğıya görə muxtar respublika rəhbərinə borcluyuq. Bütün bunların müqabilində isə daha səylə çalışmalı, gələcəyin savadlı kadrlarının yetişdirilməsində əlimizdən gələni əsirgəməməliyik.

**Elmira HÜSEYNOVA**
***Naxçıvan Qızlar Liseyinin müəllimi***

*Milli dəyərlərimiz*

# Məscidlərimiz dini-mənəvi dəyərlərimizin təbliğ olunduğu məkanlardır

***Naxçıvan tarixən İslam sivilizasiyasının öndə gedən mərkəzlərindən biri olub. Tarixi məscidlər isə bu sivilizasiyanın formalaşmasında mühüm rol oynayaraq mənəvi irsin qorunmasına öz töhfələrini veriblər. İslam mədəniyyətinin bu qiymətli abidələri əsrlərboyu mənəvi kamilləşmə, birlik, həmrəylik, sevgi, yardımlaşma kimi dəyərlərin təbliğ olunduğu məkanlar kimi tanınıb, eyni zamanda elm, maarif ocağı sayılıb.***

Milli və mənəvi dəyərlərin hər zaman yüksək səviyyədə qorunduğu Naxçıvanda ilk məscidlərin yaranması İslam dininin yayılması dövrünə təsadüf edir və sovet dövrü istisna olmaqla, demək olar ki, bütün dövrlərdə aktuallıq kəsb edib. Hazırda bizə məlum olan ilk məscid nümunəsi XII əsrdə şəhərdə tikilmiş Cümə məscididir. Bu məscidi Naxçıvanda dini-memorial tikililərin ən gözəl nümunələrindən biri hesab edirlər. Ümumilikdə götürsək, muxtar respublikada istər Cümə, istərsə də məhəllə məscidlərinin xeyli hissəsinin tikintisi XVI əsrin sonu, XVII əsrin əvvəllərinə və XVIII əsrin ilk onillikləri dövrünə aid edilir. Əməkdar incəsənət xadimi, professor Vidadi Muradovun "Naxçıvan diyarında sənətkarlıq və ticarət (XVIII-XX əsrin əvvəlləri)" adlı monoqrafiyasında qeyd olunur ki, XVI əsrin sonu, XVII əsrin əvvəllərində Naxçıvan şəhərində adıçəkilən Cümə məscidindən əlavə, "Məhmət katxuda", "Cameyi-Şərif" adlı cümə məscidləri də fəaliyyət göstərib. Elə həmin dövrdə Naxçıvan şəhərində "Ağa məscidi", "Hacı Xəlil məscidi", "Keçəçi məscidi", "Molla Əhməd məhəlləsinin məscidi", "Bəsri məscidi", "Şeyx Əminəddin məscidi", "Hacı Sani məscidi" adlı məscidlər də mövcud olub.



Naxçıvanda məscid tikintisində milli memarlıq ənənələrindən də geniş istifadə olunub. Məsələn, məscid və tarixi tikililərdə müxtəlif həndəsi formalara malik bəzəkli kaşılardan, rəngli şüşələrdən istifadə olunması Səfəvi miniatür sənətinin yüksək inkişafının göstəricisi sayılır. Qeyd edək ki, bu təsir sonrakı dövrlərdə Osmanlı memarlığında da hiss olunur. Təbii ki, Naxçıvan məscidlərinin memarlıq elementləri bura yolu düşən səyyahların da nəzərindən qaçmamışdır. Naxçıvan şəhərində tikilmiş məscidlər haqqında Övliya Çələbi müfəssəl məlumat verərək bildirir ki, XVII əsrin ortalarında burada 40 məscid fəaliyyət göstərirdi. Səyyah Naxçıvanda tikilmiş məscidlərə heyranlığını isə belə ifadə etmişdir: "Naxçıvanın qəribə cümə məscidləri vardır ki, onların əksəriyyəti şirli, bəzəkli kaşılar, rəngarəng şüşələrlə bəzədilmişdir. Neçəsinin yarımdairə şəklində çatılmış tavan günbəzləri şirli kaşılarla bərkidilmişdir".

Xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə milli-mənəvi dəyərlərə münasibət kökündən dəyişmiş, bu zəngin xəzinənin qorunmasına dövlət səviyyəsində böyük qayğı və diqqət göstərilmiş, qapıları uzun müddət bağlı qalan müqəddəs ibadət ocaqlarının fəaliyyəti bərpa edilmişdir. Xüsusilə müstəqillik dövründə Naxçıvan şəhərində 3, Şərur rayonunda 29, Babək rayonunda 31, Ordubad və Culfa rayonlarının hər birində 5, Kəngərli və Şahbuz rayonlarının hər birində 3, Sədərək rayonunda isə 1 məscid olmaqla, ümumilikdə, 80 məscid tikilmişdir. Muxtar respublikada mövcud olan 211 məscidin 159-u əsaslı şəkildə təmir olunmuşdur. Xatırladaq ki, muxtar respublikadakı məscidlərin 131-i keçmiş dövrdə tikilmiş məscidlərdir. Bu rəqəmlər onu göstərir ki, Naxçıvanda məscid tikintisinə böyük önəm verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Məscidlər ibadət yeri olmaqla yanaşı, həm də mənəvi dəyərlərimizin yaşadıldığı məkanlardır. Məsciddə İslam dini və mənəvi dəyərlərimiz gələcək nəsillərə olduğu kimi öyrədilməli, saf əməllər naminə ibadətlər olunmalıdır".*** Ali Məclisin Sədri digər bir fikrində vurğulayır: ***"Hazırda dünyanın bəzi ölkələrində müharibələr gedir, məscidlər və dini abidələr dağıdılır. Lakin Azərbaycanda sabitlikdir, bütün sahələr inkişaf etdirilir, məscidlər, yollar və digər sosial obyektlər istifadəyə verilir, dini-mənəvi dəyərlərimiz qorunub yaşadılır".***

Sevindirici haldır ki, bu gün muxtar respublikada fəaliyyət göstərən məscidlərdə heç bir məzhəb ayrılığına yol verilməyərək insanların ibadət azadlığı təmin olunur. Qaragüruhçu zehniyyətdən və mövhumatdan fərqli olaraq hər kəs dinimizin buyurduğu ayinlərin icrasında sərbəst iştirak edə bilir. Eyni zamanda məscidlərdə istər dini ayinlər, istərsə də dini bayramlar milli və mənəvi dəyərlərimizə, İslam ənənələrinə uyğun olaraq təşkil olunur və keçirilir. Muxtar respublikada dini mərasimləri idarə edən din xadimlərinin attestasiyadan keçirilməsi, onların vəsiqələrlə və geyim formaları ilə təmin olunması müvafiq qaydalar üzrə aparılır. "Naxçıvan" Universitetində bir neçə ildir, Dinşünaslıq ixtisasının açılması isə dini sahədə işləyəcək ixtisaslı kadrların hazırlanması məqsədi daşıyır.



Yeri gəlmişkən onu da deyək ki, qədim diyarımızın İslam dininin və mədəniyyətinin inkişafında rolu nəzərə alınaraq ötən il Naxçıvan şəhəri İslam Mədəniyyətinin Paytaxtı kimi nüfuzlu beynəlxalq tədbirə ev sahibliyi etdi. Müxtəlif İslam ölkələrindən bura gələn qonaqlar Naxçıvanla tanışlıq zamanı həm də burada fəaliyyət göstərən məscidləri ziyarət etdilər. Hər kəs bir daha onun şahidi oldu ki, Naxçıvan, həqiqətən də, dini və mənəvi dəyərlərin tolerant ruhda qorunub saxlanıldığı, inkişaf etdirildiyi məkandır.

Bu gün Naxçıvan Muxtar Respublikasında iqtisadi və mədəni inkişafla yanaşı, dini-mənəvi dəyərlərin qorunmasına da xüsusi diqqət yetirilir. Dini dəyərlərin mahiyyətinə uyğun təbliğ olunmasına, dini-tarixi abidələrin bərpası və yeni məscidlərin tikilməsinə mühüm əhəmiyyət verilir. Hazırda Naxçıvan şəhərində inşası davam etdirilən yeni məscid də mənəvi dəyərlərimizin yaşadılacağı məkan kimi diqqəti cəlb edir. Məlumat üçün bildirək ki, məscid kompleksinin sahəsi 6400 kvadratmetrdir. Eyni vaxtda 5 min nəfərin ibadət edəcəyi məsciddə qadın və kişilər üçün nəzərdə tutulmuş ibadət zalları, eləcə də mədrəsə olacaqdır. İki minarəli və 15 günbəzli məsciddə əsas tikinti işləri başa çatdırılıb. Naxçıvan və Şərq memarlıq üslubunda inşa olunan məscidin günbəzlərinin hündürlüyü 12, minarələrinin hündürlüyü isə 40 metrdir. Kompleksdə Naxçıvan Muxtar Respublikası Qazisi yanında Şura üçün ikimərtəbəli inzibati bina və ikimərtəbəli mərasim binası da inşa olunub. İnzibati binada iş, kəbin və digər xidməti otaqlar, mərasim binasında isə ayrı-ayrılıqda qadınlar və kişilər üçün zallar, texniki otaqlar və dəstəmazxanalar olacaqdır. Bütün bunlar bir daha onu göstərir ki, muxtar respublikamızda dini-mənəvi dəyərlərin qorunması və təbliği gələcəkdə də uğurla davam etdiriləcək.

**Səbuhi HƏSƏNOV**

*Yurdumuzun nemətləri*

# Sədərək bağlarının alyanaq üzümü

***Qədim yurd yeri Sədərək tarixi, mədəniyyəti, qəhrəmanlığı ilə yanaşı, bərəkətli torpağında yetişən meyvə-tərəvəzləri ilə də tanınır. Diyarımızda ən dadlı, şirin üzüm də elə burada yetişir. Təsadüfi deyil ki, sovetlər dönəmində böyük şərab zavodlarından biri bu bölgədə inşa olunub. Min ildən çox tarixi olan üzümçülükdə sədərəklilərin özünəməxsus becərmə üsulu vardır. Sədərəkdə bu gün də üzümçülük inkişaf etdirilir, yeni üzüm bağları salınır, qədimdən qalan üzüm sortları isə calaq yolu ilə artırılır. Rayon sakinləri gəlirli sahə olan üzümçülükdən, necə deyərlər, dördəlli yapışıblar. Bu sahə ilə məşğul olanlar həm öz təsərrüfatlarında çalışıb gün-güzəranları yaxşılaşdırır, həm də daxili bazara öz töhfələrini verirlər. Üzümçülük gəlirli sahə olduğu üçün bu təsərrüfat növünə maraq ilbail artmaqdadır. Sədərəkdə olan üzüm bağının şöhrəti ilə bağlı Əli İsmayılovla həmsöhbət olduq.***

O, gənc yaşlarından üzümçülüklə məşğuldur. Kənddə hamı onu təcrübəli üzümçü kimi tanıyır. Gənclər üzüm bağı salmaq istəyəndə mütləq onunla məsləhətləşirlər. Əli dayı deyir ki, rayonda 50-dən çox üzüm növü var. Buradakı üzüm bağlarında arxlar dərin olur. Arası isə 3 metr, tənəklər də bir-birindən 2 metr məsafədə əkilir. Rayonda bu üsulla əkilən, yaşı 100-dən yuxarı olan bağlar var. Yeni bağlar da salırıq ki, üzümün ayağı torpağımızdan çəkilməsin. Bağlarda "teyti", "nəbi", "xəlilli", "hüseyni", "təbrizi", "mərəndi", "şəfiyi", "mələyi", "əsgəri", "xatını", "xangörməz", "aldərə", "qara əsgəri", "ağ, qırmızı", "sarı və qara kişmişlər", "hənəqırna", "qoçbaşı" kimi dadı damaqdan getməyən üzüm növləri süfrələrimizin bəzəyidir. Bunların arasında elə bil Tanrı "hənəqırna"nı Sədərək torpağı üçün yaradıb. Gilələri az qala ərik yekəlikdə olan bu üzüm növünü qış aylarına kimi saxlamaq mümkündür. "Hənəqırna"nın mövücünün sorağı hələ qədim zamanlardan adla deyilib. Bal kimi olur,



yeyəndə gözə işıq, qola qüvvət gətirir. "Hənəqırna"nın 100 kiloqramından ən azı 25 kiloqram mövüc hasilə gəlir. Əli dayı onu da bildirir ki, üzümün qurudulub kişmiş və mövüc şəklində qışa tədarük olunması da minillik ənənəmizdir. Bunun üçün xüsusi ustalıq lazımdır. Üzümün açıq havada qurudulması üçün əlverişli iqlim şəraiti vardır. Qədimdə babalarımız ciblərinə dəsmala bükülmüş kişmiş, fındıq qoyardılar. Kişmişi, mövücü cibdə gəzdirmək bir növ dəbdəydi.

Kaloriliyi çox olduğu üçün uzaq səfərə çıxanlar onu ciblərinə tökərdilər ki, yolboyu acanda yesinlər. Elə "qara kişmişi cibə tökərlər" deyimi də buradan yaranıb. Bu deyimdə kişmiş qara, büzüşmüş, çirkin də olsa, onun şirin, həddən artıq qiymətli və faydalı, həm də cibdə gəzdirməyə münasib olduğu göstərilir.

Müsahibim onu da bildirir ki, üzüm bağını əkib-becərmək zəhmət tələb edir. Belə ki, Naxçıvanın iqlimi qışda çox sərt olduğundan bütün üzüm kolları payızda budanır, bükülür və torpağa basdırılır. Yazda bu tənəkləri vaxtında torpaqdan çıxarmaq lazımdır. Əgər bu iş düzgün aparılmazsa, tənəklərə ziyan dəyə bilər. Dədə-babadan belə bir söz deyərlər: "Elə ki bayram aşını yeyib qurtardın, səhəri gün üzüm tənəkləri torpaqdan çıxarılmalıdır". İlin axır çərşənbəsi hər il eyni günə təsadüf etmir. Qədimdən yadigar qalan həmin gün mart ayının birinci ongünlüyü ilə ikincinin arasında qeyd olunur. Bu isə imkan yaradır ki, torpaqdan təzəcə çıxarılmış tənəkləri şaxta vurmasın. Üzüm kolları torpaqdan çıxarılıb yenidən əvvəlki yerlərinə iplə bağlanır. Bu işi ehtiyatla görmək lazımdır ki, kolun budaqları zədələnməsin. Yarpaqlayandan bir az sonra üzüm budanır. Bu zaman yenicə əmələ gələn qoralar zədələnməməli və üzüm elə budanmalıdır ki, həmin salxımlar çox da açıqda qalmasın. Günəşin istisi onu yandırmasın. Müsahibim onu da diqqətimizə çatdırır ki, yaz vaxtı tənəklərdən yarpaq yığıb nübar dolma bükmək adətimiz də var. Həmin vaxt tənəklərin uclarındakı yarpaqlardan toplamaq lazımdır. Həm bişirdiyiniz yemək dadlı olar, həm də üzüm kolu zədələnməz. Bu bitki o qədər bərəkətlidir ki, yarpağı da, meyvəsi də, qurumuş kolları da insanların əlindən tutur. Üzüm tənəyinin közündə bişən kababın, dastananın dadı damaqda qalır desəm, yanılmaram.



Kənd sakini Mikayıl Bəbirovla da həmsöhbət oluruq:

– Sədərək üzümü bu gün də dillər əzbəridir. Rayonun qədim üzümçülük mədəniyyəti indinin özündə də yaşadılan, elmi əsaslara söykənən bir sahədir. Bu kənddə Novruz bayramına, hətta yay girənədək təzə-tər üzüm saxlayanlar da az deyil. Kənd sakinləri üzüm məhsulunun saxlanmasına həmişə xüsusi qayğı göstəriblər. Bunun üçün müxtəlif üsullardan istifadə ediblər. Üzümün yığılması, saxlanılması da xüsusi qaydada aparılır. Hər salxımın saplaq kəsiyinə bir gilə üzüm taxılır. Salxım bu gilədən nəm çəkər, gilələr qurumaz, təzə-tər qalar, deyərsən bəs, tənəkdən indicə dərilib. Sədərək üzümünün saxlanma üsulları da maraqlıdır. Milax hazırlayır, salxımları ona düzüb sərin, quru damlarda saxlayır. Buna milax üzüm də deyirlər. Bu üsulla hətta sulu, şirəli armudu, gülöyşə və ağ narı, heyvanı da milaxdan asmaqla uzun müddət saxlayarlar. Qış axşamlarında, Novruz bayramında belə milaxlar süfrələrin bəzəyi olur.

O, saxlanılacaq üzümün yığılmaq qaydasından da danışır. Deyir ki, belə üzümlər quru havada yığılmalıdır, bu vaxt gilələr yaş olmamalıdır, yağışlı və dumanlı havada yığılan üzüm keyfiyyətini itirir, onu saxlamaq çətin olur. Meyvələr yığıldıqdan sonra salxımlar nəzərdən keçirilməli, zədəli və soluxmuş, quru gilələr qoparılmalıdır. Yetişməmiş və çürük gilələri təmizləyərkən mum təbəqəsini qorumaq üçün yalnız saplaqdan tutulmalıdır. Giləmeyvənin saxlanılma üsullarından söhbət açan həmsöhbətim deyir:

– Bu üsullardan ən geniş yayılanı "bandaq" üsuludur. Uzunluğu 2-3 metr olan ağac pərdiyə qarmaqlı söyüd budaqları bağlanır. Bandaq üçün dərilən salxımlar zoğlu (1,5-2 buğum) olmalıdır. Bəzən kəsilən salxım bir gün kolun üzərində saxlanılıb, ikinci gün yığılır. Belə olduqda gilələnmə azalır, təmizlənmə işi xeyli asanlaşır. Daha sonra üzüm salxımları bandağın aşağısından başlamaqla asılır. Həmin salxımlar döşəmədən 30-40 santimetr hündürlükdə olmalıdır. Bu üsulla bir bandağa 50-100 kiloqrama qədər üzüm yığıb saxlamaq mümkündür. Digər bir üsulda üzüm salxımı saplaqdan iti bıçaqla kəsilir və bir giləsi salxım saplağının ucuna, yəni çubuqdan qırılan hissəsinə keçirilir. Sonra üzüm salxımları qamışdan düzəldilmiş döşəməyə sərilir və həftədə bir dəfə salxımlar çevrilərək zədəli gilələrdən təmizlənir.

Digər bir saxlama üsulundan danışan müsahibim deyir ki, üzümü zirzəmidə və ya evin damında torpağın üstünə sərərək üzərini yumşaq torpaqla örtməklə və yaxud salxımlı zoğu torpağa basdırmaqla da saxlayırlar. Üzümü torpağa basdıran zaman giləmeyvəni öz yarpağına bükmək onun saxlanma müddətini uzadır. Asma üsulu da çox istifadə olunan qaydalardandır. Uzunluğu 1-2 metr, ağırlığı 2-10 kiloqram olan asmalar əl damında, zirzəmidə, evin tavanından asılır. Lakin bu üsulla saxlanan üzüm təravətini tez itirir və gilələr büzüşər. Rütubətin azlığından bəzən belə saxlanan üzüm kişmişə çevrilir. Üzüm rəflərdə, tərəcələrdə, qutularda sərilmiş vəziyyətdə də saxlanılır. Qablara ağac yonqarı, çiyid qabığı, dənizotu, qum tökülür. Bu üsulla saxlanan üzüm məhsulu asma üsuluna nisbətən az soluxur, lakin çürüməsi çoxalır. Üzüm saxladığımız yerin sərin olması daha yaxşıdır. Bundan başqa, tənəyin üzərində olan salxımları torbaya salırlar. Bəzən uzun zoğlarda olan salxımları torbaya salıb, zoğları sərin bir otağa qoyub, bütün qışı saxlayırlar. Bu "milax" üsulu adlanır. Digər bir üsulda, söyüd və ya çəkil çubuqlarından hazırlanmış qələmlərə 8-10 salxım asırlar və bu qələmləri çardaqda, talvarda, yaxud anbarda kiçik çilləyə qədər saxlayırlar. Həmsöhbətim onu da bildirdi ki, bu üsulla "təbrizi" sortunu 6-7 ay saxlamaq mümkündür. Bu üzüm sortu, yetişdikdən sonra 2-3 ay tənəyin üzərində saxlana bilər. Başqa bir üsulda salxım zoğla birlikdə kəsilərək qabda suya qoyulur və xarab olmaması üçün ona bir qaşıq ağac kömürü əlavə edilir. Su olan qablar xüsusi dərəcələrdə maili vəziyyətdə qoyulur. Buxarlanmanı azaltmaq üçün qabın ağzı pambıqla örtülür. Bəzi sortlar, hətta suda kök əmələ gətirsə belə, salxım kütləsini itirmir. Mikayıl dayı deyir ki, vaxtilə qonşu deyib suyumuzu, çörəyimizi əsirgəmədiyimiz bu mənfur ermənilər torpaqlarımıza göz dikəndə kənddəki üzüm bağları da ziyan görmüşdü. Amma ağızlarının payını verib yerlərinə qovandan sonra, şükür Allaha, bağımız, bağatımız da güllük-gülüstanlığa çevrildi.

Mikayıl dayının sözünə qüvvət olaraq onu da əlavə etmək istərdim ki, xalqımıza aid olan bir çox adət-ənənələri, nemətləri, meyvələri mənimsəməyə çalışan ermənilər yüz illərdir, bu bitkinin köklərini qoparıb öz ərazilərinə aparıb, əkib, onu mənimsəməyə cəhd etsələr də, Sədərək üzümünün dadını ala bilməyiblər. Çünki bu torpağın nemətləri də insanları kimi torpağına bağlı, vəfalıdır.

Bu gün düşmən gülləsinin bir addımlığında yaşayan insanların torpağa bağlılığı Sədərəyin qədim üzümçülük ənənələrinin hələ min illər bundan sonra da davam edəcəyinə və nəsildən-nəslə ötürüləcəyinə sübutdur.

✍ **Ramiyyə ƏKBƏROVA**

---

*"Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2009-cu il 7 fevral tarixli Sərəncamına uyğun olaraq muxtar diyarımızın bütün bölgələrində xalq yaradıcılığı nümunələrinin, milli dəyərlərimizin aşkarlanması, təbliği və tətbiqinə yönəlmiş ənənəvi "Xalq yaradıcılığı günləri" adlı tədbirlər keçirilir.*

## Ənənəvi "Xalq yaradıcılığı günü" keçirilib



Ordubad rayonunun Dırnıs kəndində keçirilən növbəti belə tədbirdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodik Mərkəzinin direktoru Səyyar Məmmədov və Ordubad rayonundakı Kotam kənd Mədəniyyət evinin metodisti Rəcəb Quliyev çıxış ediblər.

Çıxışlarda vurğulanıb ki, muxtar respublikada milli-mənəvi dəyərlərimizin qorunması, təbliği və gələcək nəsillərə ötürülməsi istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter alıb. Belə tədbirlər unudulmaqda olan milli dəyərlərimizin yenidən xalqımıza qaytarılmasında mühüm rol oynayır.

"Xalq yaradıcılığı günü" tədbirində Ordubad Rayon Mədəniyyət Şöbəsinin tabeliyindəki Ordubad Rayon Uşaq Musiqi Məktəbinin muğam ansamblının, mədəniyyət evləri və klubların dərnək üzvlərinin, rəqs və yallı qruplarının, eləcə də folklor kollektivlərinin ifasında "Tənzərə" yallısı, "Nar ağacı, nar çiçəyi" xalq mahnısı, "Şur" təsnifi, "Ruhani" aşıq havası, "Elçilik" və "Haxışta" mərasimləri və digər xalq yaradıcılığı nümunələri təqdim edilib.

**Naxçıvan Muxtar Respublikası**
**Mədəniyyət Nazirliyinin mətbuat xidməti**

---

## *"Yay oxu zalı"* na yekun vurulub



*Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası ənənəvi olaraq hər il iyul-avqust ayları ərzində həftənin II və V günləri olmaqla kitabxanada "Yay oxu zalı" təşkil edir.*

Burada əsas məqsəd şagirdləri yeni dərs ilinə hazırlamaq, onların asudə vaxtlarının səmərəli təşkili və mütaliəyə maraqlarını artırmaqdır.

2019-cu ilin yay mövsümü üçün Naxçıvan şəhərində fəaliyyət göstərən ayrı-ayrı məktəblərdən, ümumilikdə, 50 şagird "Yay oxu zalı"na göndərilib.

"Yay oxu zalı"nda dərsləri kitabxana əməkdaşları tədris ediblər. Burada fiziki tərbiyə, texnologiya, təsviri incəsənət, musiqi və rus dili fənlərindən başqa, bütün fənlər tədris olunub. Dərs saatları səhər saat $10^{00}$-dan $13^{00}$-dək davam edib.

İyun ayının 28-dən başlanan tədris müddəti yekunlaşıb. Yekun məşğələdə valideynlər də iştirak edib, onlar kitabxananın bu fəaliyyətini yüksək qiymətləndirərək minnətdarlıqlarını bildiriblər.

---

## Növbəti yarmarkada bol və keyfiyyətli məhsul satışa çıxarılıb

Muxtar respublikadakı sürətli sosial-iqtisadi inkişaf, bütün sahələrlə yanaşı, kənd təsərrüfatının inkişafına yaradılan münbit şərait, torpaq mülkiyyətçilərinə, ailə təsərrüfatlarına göstərilən dəstək dükan və bazarlarımızdakı keyfiyyətli məhsul bolluğuna səbəb olub. Bunu hər şənbə və bazar günləri keçirilən kənd təsərrüfatı məhsullarının satış yarmarkalarında da əyani şəkildə görmək mümkündür.



Naxçıvan şəhərinin Xətai küçəsindəki Mərkəzi bazarda keçirilən növbəti satış yarmarkada Naxçıvan şəhər sakinləri və qonaqlara müxtəlif çeşidli kənd təsərrüfatı və ərzaq məhsulları təklif olunub. Yarmarkaya, ümumilikdə, 22 istehsal müəssisəsi tərəfindən 80 növdə, 269 çeşiddə məhsul çıxarılıb. 600-dən çox ailə təsərrüfatçısı tərəfindən bazara çıxarılan məhsullar qısa müddətdə satılıb.

Yerli məhsulların münasib qiymətə satılması alıcılar tərəfindən razılıqla qarşılanıb, keçirilən belə tədbirlərdən minnətdarlıqla danışıblar.

**Xəbərlər şöbəsi**

---


### Culfa "Əbrəqunus-Şərab" ASC-nin səhmdarlarının nəzərinə!

29 avqust 2019-cu il tarixdə cəmiyyətin səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir. Gündəlikdə duran məsələlər:

*1. Cəmiyyətin 2018-ci il ərzində fəaliyyəti barədə idarə heyəti sədrinin hesabatı*

*2. Digər məsələlər.*

Yığıncaq 29 avqust 2019-cu il tarixdə saat $11^{00}$-da Culfa rayon Əbrəqunus kəndində, cəmiyyətin inzibati binasında keçiriləcəkdir.

***İtmişdir***

İbrahimova Səkinə Məhəmməd qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Orucov Hüseyn Rza oğlunun adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Gülməmmədova Gülşən Bəhlul qızının adına olan evin 6767 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.



**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Ramiyyə Əkbərova**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1495. Sifariş № 570**